# Bakıda BMT-nin Turizmin Avropa Regional Komissiyasının 71-ci iclası keçirilir



İyunun 5-də Bakıda BMT-nin Turizmin Avropa Regional Komissiyasının 71-ci iclası işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə 40-a yaxın ölkədən 150-dən çox nümayəndə iştirak edir. Tədbirdə çıxış edən Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev BMT-nin Turizm Təşkilatı ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə xüsusi diqqət verildiyini söyləyib. O, ölkəmizin 2001-ci ildən təşkilata üzv qəbul olunması, 2013-cü ildən indiyədək 3 dəfə İcraiyyə Şurasında təmsil olunması, 2017-ci ildə İcraiyyə Şurasına sədr seçilməsi və 2019-cu ildə İcraiyyə Şurasının 110-cu sessiyasına evsahibliyi etməsi haqqında məlumat verib.

Prezident İlham Əliyevin Azərbaycanda turizmin inkişafına daim diqqət göstərdiyini vurğulayan F.Nağıyev Azərbaycanın Avropa ilə digər regionlar arasında bir çox sahədə olduğu kimi, turizm sahəsində də körpü rolunu oynayan mərkəzə çevrildiyini qeyd edib. Fuad Nağıyev 2024-cü il ərzində ölkəmizə gələn xarici ziyarətçilərin sayının 2023-cü illə müqayisədə 26 faiz artdığını, turist xərcləmələrinin isə 5,1 milyard dollara çatdığını bildirib.

Fuad Nağıyev COP29-a evsahibliyi edən ölkə kimi Azərbaycanın xüsusi səyi nəticəsində COP tədbirləri tarixində ilk dəfə turizm mövzusunun iqlim danışıqlarının əsas gündəliyinə salınması, Dövlət Turizm Agentliyi və BMT-nin Turizm Təşkilatının birgə təşkilatçılığı ilə turizm sektorunda təkmilləşdirilmiş iqlim fəaliyyəti üzrə nazirlərin birinci görüşü və indiyədək 70-dən çox ölkənin tərəfdar çıxdığı "Turizm sektorunda təkmilləşdirilmiş iqlim fəaliyyəti üzrə COP29 Bəyannaməsi" haqqında məlumat verərək iştirakçı ölkələri bəyannaməyə qoşulmağa çağırıb.

Agentlik sədri həmçinin Azərbaycanın 2025-2029-cu illər üçün BMT-nin Turizmin İcraiyyə Şurasında Avropa regionu üzrə ayrılmış yerlərdən birinə namizədliyini irəli sürdüyünü qeyd edərək müvafiq səsvermə zamanı üzv dövlətlər tərəfindən veriləcək dəstəyin əhəmiyyətli olduğunu vurğulayıb. Tədbirdə çıxış edən Ümumdünya Turizm Təşkilatının icraçı direktoru Natalia Bayona Azərbaycan tərəfinə tədbirin yüksək səviyyədə təşkilatçılığı və qonaqpərvərlik üçün təşəkkür edib. O, turizmin iqtisadiyyatın ən insanyönümlü sahəsi kimi insanları və mədəniyyətləri birləşdirdiyini qeyd edərək bu sahənin dayanıqlı gələcəyini təmin etmək məqsədilə innovasiya, təhsil və investisiyaların önəmini vurğulayıb.

Avropa Regional Komissiyasının üzvü olan 38 Avropa ölkəsindən 150-yə yaxın rəsmi nümayəndənin iştirakı ilə keçirilən tədbirdə təşkilatın 2024-2025-ci illər üzrə fəaliyyətinə dair hesabatlar dinləniləcək, Baş Assambleya, müxtəlif komitələr və işçi qruplar üzrə müxtəlif seçkilər, o cümlədən İcraiyyə Şurasına seçkilər baş tutacaq.

Qeyd edək ki, Avropa Regional Komissiyası üzrə İcraiyyə Şurasının üzvlüyünə ayrılmış 5 yer üzrə Azərbaycanla yanaşı, Qazaxıstan, Moldova, Sloveniya, Fransa, Ermənistan, Rumıniya, Xorvatiya və Yunanıstan kimi ölkələr tərəfindən 2025-2029-cu illər üçün namizədlik irəli sürülüb.

Tədbirin ikinci günündə "Təkandan yüksəlişə: turizmdə iqlim dəyişikliklərinə qarşı fəaliyyətin COP29-dan sonra irəliləməsi" mövzusunda tematik konfransın keçirilməsi nəzərdə tutulur.

Azərbaycan.- 2025.- 6 iyun (№117).- S.11.